# «Ölkəmizi tanıyaq» tur-aksiya—yaddaşlarda qalan tarixi təəssüratlar

(Əvvəli 3-cü səhifədə).

Tur-aksiyasının sonuncu günü Xaçmaz rayonuna gələn məktəblilər şəhərlə tanış oldular. Heydər Əliyev Mərkəzində, Xalça muzeyində, Dövlət Rəsm Qalereyasında uşaqlar maraqlı vaxt keçirdilər. Şəxsiyyətlər muzeyi hər kəsin diqqətini cəlb etdi. Azərbaycanın dahi insanlarının büstləri düzülmüş açıq muzey olduqca maraqlı idi. Möhtəşəm bir binada yerləşən tarix-diyarşünaslıq muzeyində məktəblilər tarixi faktlarla tanış oldular. Bu səfər zamanı uşaqlar ancaq gəzmir, intellektual oyunlarla da məşğul olurdular. Yol boyu hər bir şəraiti olan rahat avtobusda məktəblilər nəyə qadir olduqlarını nümayiş etdirdilər. Biz bir daha əmin olduq ki, uşaqların seçimi düzgün olmuşdur. Şagirdlər gözəl şeirlər söyləyir, xalq mahnılarından tutmuş ən müasir mahnılara kimi ifalar edir, yoldaşlarına məntiqi suallar verirdilər. Elə ilk dəqiqələrdə uşaqlar arasında isti münasibət yarandı. Bu turda iştirak edən bütün şagirdlər bacarıqlı idi. Ancaq bir nəfəri xüsusi qeyd etmək istəyirik. Bu, Həmzəli kənd tam orta məktəbin IX sinif şagirdi Məsimov Orxan Eldar oğlu idi. Onun ictimai həyata baxışı, məntiqli fikirləri hər kəsi heyran edirdi. Olduqca tərbiyəli, səmimi, intellektual səviyyəsi olan bu məktəbli gözəl şeirlər, xalq və bəstəkar mahnılarını ifa etdi. Belə şagirdlər məktəblərimizdə onlarladır. Hər bir müəllim, məktəb rəhbərliyi onları üzə çıxarmaq üçün səy göstərməlidir.

Dördgünlük tur məktəblilərdə çox maraqlı, yaddaqalan təəssüratlar yaratdı. Bu layihənin həyata keçirilməsi gənc nəslə göstərilən dövlət qayğısının, gənclərin inkişafı üçün yaradılmış şəraitin barız nümunəsidir. Belə tədbirlər gənclərimizin milli-mənəvi dəyərlərimizə hörmət, tariximizə böyük ehtiram, sədaqət, vətənə, dövlətə məhəbbət ruhunda tərbiyə olunmasında, tədris prosesində əldə etdikləri nəzəri biliklərin möhkəmləndirməsində xüsusi əhəmiyyət kəsb edir.

Hər birimiz gələcəyimiz olan gənc nəslə göstərilən bu qayğıya görə, məhz bu layihəyə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarıq. Layihənin təşkilatçılığını həyata keçirən hər kəsə çox sağ ol deyirik.

**Arifə BAYRAMOVA,**
**rayon təhsil şöbəsi**
**metodiki kabinetin müdiri.**

# «Azərbaycan gəncliyi 2016—2020-ci illərdə» Dövlət Proqramı ilə bağlı müzakirələr aparılıb

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə nazirlikdə «Azərbaycan gəncliyi 2016-2020-ci illərdə dövlət Proqramına dair müzakirələr aparılıb. Nazir müavini İntiqam Babayevin rəhbərliyi ilə keçirilən müzakirələrdə «Azərbaycan Televizya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin, müdafiə, təhsil, mədəniyyət və turizm, iqtitsadiyyat və sənaye, bir sıra digər nazirliklərin, dövlət komitələrinin, elmi idarələrin, digər dövlət qrumlarının, icra hakimiyyəti orqanlarının nümayəndələri iştirak ediblər.

Müzakirələr zamanı dövlətin gənclər siyasəti ilə əlaqədar indiyədək görülən işlər, qəbul edilən Dövlət Proqramlarının icrası gənclərin hərtərəfli inkişafını stimullaşdırıb. Eyni zamanda son onilliyin əsas çağırışları olan İKT-nin sürətlə inkişafı, qloballaşma gənclərlə bağlı proseslərə ciddi təsir göstərməkdədir.

Müzakirələrdə qeyd olunub ki, Prezident İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» inkişaf konsepsiyasına və 2015-ci il 26 yanvar tarixli sərəncamı ilə təsdiq olunmuş «2015—2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyasına uyğun olaraq «Azərbaycan gəncliyi 2016—2020-ci illər» barədə Dövlət Proqramı hazırlanıb. Proqramda gənclərin hərtərəfli inkişafı üçün lazımi şərait yaradılması, gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, təhsil alan gənclərin, gənc alim və mütəxəssislərin sosial müdafiəsinin yaxşılaşdırılması və digər məsələlər nəzərdə tutulmuşdur.

Azərbaycan! Odlar yurdu! Odlar ölkəsi! Ürəyi alovlu, sinəsi günəşli doğma Vətənim! Ulu Tanrı vətənimizdən heç nəyi əsirgəməmişdir. Sanki təbiət öz mahir fırçasını bu yerlərdə sınaqdan keçirmiş və bütün gözəlliklərini bu dünyaya bəxş etmişdir. Başı qarlı dağları, sıx meşələri, bol sulu çayları, gül-çiçəkli çəmənlikləri var yurdumuzun.

Bu bol sərvət qədirbilən xalqımıza İlahidən bəxş olunub. Bəxş olunub ona görə ki, vətən övladları heç zaman, heç nəyə möhtac olmasınlar, yadlara əl açmasınlar!

Ulu öndərimiz Heydər Əliyevin müstəsna tarixi xidmətləri vardır.

Ümummilli liderimiz Heydər Əliyev siyasətilə dünyanı Azərbaycana, Azərbaycanı dünyaya tanıtdırdı. Azərbaycan mədəniyyəti tanınır, sevilir və zənginləşir.

Heydər Əliyev irsinin daha bir davamçısı, ölkənin birinçi xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Heydər Əliyev Fondu və onun rəhbəri Mehriban xanım Əliyeva Azərbaycanın firavan gələcəyi, Azərbaycan xalqının bu günü və xoşbəxt sabahı naminə fəaliyyət göstərir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qəbələdə Beynəlxalq Musiqi Festivallarının keçirilməsi də Azərbaycan tarixini və musiqisini dünya xalqlarına tanıtmaq yolunda düşünülmüş addımdır.

İstedadlı gənclərin üzə çıxarılması, inkişafı, onların dünyaya tanıdılması məsələləri, sərgilərin, konsertlərin təşkili Heydər Əliyev fondunun əsas məqsədləriındəndir. Müxtəlif layihələr hazırlayıb həyata keçirən Fond ölkəmizdə və xaricdə gənc istedadların təbliğ edilməsi ilə əslində Azərbaycan mədəniyyətini dünyaya tanıdır.

2011-ci ildə Azərbaycan Avropanın ən nüfuzlu musiqi yarışı olan “Evrovision” mahnı müsabiqəsində qalib gəlmişdir. Bu qələbə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin, gənclər arasında aparılan obyektiv seçimlərin nəticəsində qazanılmışdır.

Prezident İlham Əliyevlə çiyin-çiyinə Azərbaycanın xoşbəxt gələcəyi namine birgə addımlayan ölkənin birinci xanımı Mehriban xanım Əliyeva yorulmadan xeyirxah əməllərinə davam edir. Mehriban xanım Əliyeva xalqımızın hörmət bəslədiyi və sevdiyi qadın liderimizdir.

Bu gün banisi Heydər Əlieyev olan azərbaycançılıq ideyası çox etibarlı əllərdədir. Cənab Prezidentimiz İlham Əliyev bütün fəaliyyətində ümummilli liderimizin siyasətini davam etdirir. Respublikamız günü-gündən inkişaf edir, xalqın həyat səviyyəsi yaxşılaşır, dövlətçiliyimiz və müstəqilliyimiz möhkəmlənir. Bu gün müstəqil Azərbaycanın möhkəmlənməsi və onun dünya miqyasında tanınması üçün möhtərəm Prezidentimizin gördüyü işlər Azərbaycan xalqı üçün böyük xidmətdir.

Artıq Azərbaycan dünyanın surətlə inkişaf edən ölkələrindən hesab olunur. Xalqın həyatına dərindən bələd olan Prezident İlham Əliyev bütün Azərbaycanı inkişaf etdirmək, ata yurdumuzun hər bir guşəsini abad, firavan görmək istəyir.

Qədim odlar yurdu olan Azərbaycanda insanın yaşaması üçün hər cür nemət var. İndi həyatımızın varlığı, gələcəyi xalqın öz əlindədir. Azərbaycanın qeyrətli oğul və qızları olmalıyıq. Çalışmalıyıq ki, azadlıq, müstəqillik adlanan neməti əldən verməyək, daha da möhkəmlənək.

# Odlar yurdu—Azərbaycan

Odlar yurdu Azərbaycan bizə Dədə Qorqudun əmanətidir. Onun hər qarış torpağında, hər daşında Babək vüqarı, Nəsimi mətanəti, Koroğlu mərdliyi, Nəbi qoçaqlığı görünür. Nizamilər, Üzeyirlər, Cəfərlər, Vurğunlar yetirən ana torpaq bizə nə qədər doğmadır.

Ana vətənimiz həmişə yağıların iştahından keçən yağlı tikə olub. Zaman-zaman sərvətlərimiz kənara daşındı, nemətlərimiz qəsb olundu. Amma sarsılmadıq. 70 ildən sonra qanlar bahasına da olsa öz istiqlalımıza qovuşduq. Hər bir xalqın malik olduğu ən böyük sərvət onun müstəqil dövlətidir. XX yüzillikdə Azərbaycan xalqı iki dəfə öz müstəqil dövlətçiliyini bərpa etməyə nail olmuşdur. Təəssüf ki, XX yüzilliyin əvvələrində bərpa olunmuş müstəqillik tezliklə itirildi. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Onun süqutundan sonra Sovet İmperiyasının 70 illik əsarəti dövrü başlandı. Lakin xalqımız öz müstəqilliyi uğrunda mübarizəni davam etdirdi. Bu mübarizədə çoxlu şəhidlər verdik. Xalqımızın mübarizə əzmi və iradəsi sınmadı. 1991-ci ilin fevralından dövlətimiz Azərbaycan Respublikası adlanmağa başladı. Üçrəngli, ay-ulduzlu bayraq yenidən dövlət bayrağımız oldu. Ölkəmizin səmasında dalğalandı.

Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıtması zülmətə, qaranlığa bürünmüş məmləkətə günəşin doğması idi. Bu, itirilmiş ümidin, sınmış inamın təntənəsi idi. Beləliklə 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil oldu. Onun böyük dövlətçilik təcrübəsi xalqı yeni faciələrdən qorudu. Bundan sonra yeni Azərbaycanın qurulmasına başlandı. Ulu öndər Heydər Əliyev ilk dəfə sübut etdi ki, zamanın böyük məsələlərini böyük dövlətlər deyil, böyük siyasi xadimlər həll edir. Kiçik dövlətlərin böyük rəhbərləri öz dövlətini istənilən böyük dövlətlərlə tərəfdaş edə bilər.

Doğma xalqını işıqlı gələcəyə qovuşdurmaq üçün gecəsini- gündüzünə qatan, daim hiyləgər düşmənlərlə çarpışan dahi rəhbər vətən yolunda, xalq yolunda bütün gücünü əsirgəmədi. O, həmişə deyərdi: “Fəxr edirəm ki, mən Azərbaycanlıyam!”

Zəngin milli-mənəvi dəyərlərimizdən bəhrələnən qədim Azərbaycan mədəniyyəti XX əsrdə misilsiz inkişaf yolu keçmişdir. Mədəni irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, təbliğində, dünya miqyasında tanınmasında

**Brilyant MƏLİKOVA,**
**rayon tarix-diyarşünaslıq**
**muzeyinin bələdçisi.**